# AY ANA

Tozlu çəkmələri sıxdın köksünə,
Bala yadigarı əzizdir sənə,
Büllur göz yaşına güc verdin yenə,
Bir az səbirli ol, ana, ay ana.

Dilindən düşməyir “oğlum, ay oğlum”,
Bala şirinliyi aləmə məlum,
Nə etmək, dərdlərə dözmək də lazım,
Bir az səbirli ol, ana, ay ana.

Bir yağlı qoğaldır bizim Qarabağ,
Yırtıcı, kəmfürsət, çoxüzlü, yaltaq
Onu alıb-satır hələlik ancaq,
Bir az səbirli ol, ana, ay ana.

Güvəndik qərara, qanunlara biz,
Təəssüf, boş çıxdı ümidlərimiz,
Silaha sarılar igidlərimiz,
Bir az səbirli ol, ana, ay ana.

Oğlunun dostları - şanlı əsgərlər
Alar Qarabağı, o gün də gələr,
Şəhid qanı yerdə qalmaz deyirlər,
Bir az səbirli ol, ana, ay ana.

***Rəsul Rəxşanlı***

Kaspi 2019.- 23-25 noyabr.- S.22.